**office**

**От:** Sevil Allahverdiyeva <allahverdiyeva.sevil@inbox.ru>
**Отправлено:** 5 сентября 2022 г. 2:51
**Кому:** office@barassociation.az

**Важность:** Высокая

**Vəkillər Kollegiyasının Rəyasət Heyətinin**

**Sədri hörmətli Anar Bağırova.**

**Allahverdiyeva Sevil İsmayıl qızı tərəfindən** *(Bakı ş.Yasamal rayonu,Zərdabi 78V,mən.65)(051 710 05 82)*

# TƏŞƏKKÜR MƏKTUBU

Hörmətli Sədr Anar Bağırov!

Sizin Sədrlik etdiyiniz Vəkillər Kollegiyasının Rəyasət Heyəti Aparatının katibliyinin əməkdaşları **Ləman Əsgərovanın, Nərgiz Nəcəfovanın, Cavid Şahməmmədlinin adlarını qeyd edərək bildirirəm ki,** həmin əməkdaşlarla ünsiyyətdə olarkən mənimlə mənim müaciətimə hörmətlə yanaşırlar, mənə qarşı fərdi münasibət nümayiş etdirirlər. Həmçinin, kənardan müşahidə edərkən də şahidi oldum ki, bu əməkdaşlar digər vətəndaşlarla da həssas davranır, hər bir vətəndaşa etik-davranış qaydalarına uyğun münasibət nümayiş etdirirlər.

Bu cür, katibliyin əməkdaşlarının mədəni davranışlarına görə, hörmətli Sədr Anar Bağırov, ilk olaraq sizə sonsuz təşəkkürlərimi bildirirəm: bu cür işçilərin mükəmməl olaraq təkmilləşmələrində sizin rolunuz böyükdür.

Bildirirəm ki, Vəkillər Kollegiyasının Rəyasət Heyətinın, sizdən əvvəlki sədrinin rəhbərliyi dövründə, yaşlı nəslin nümayəndələrinin çoxluq təşkil etdiyi katibliyin sabiq əməkdaşlarına, yazılı ərizəmi və ərizəmə əlavə etdiklərimi təqdim edərkən, sənədləri icraata qəbul etməyərək üzərimə atırdılar, mənə qarşı kobudluq nümayiş etdirirdilər. Mən də onların qanunsuz hərəkətlərindən əvvəlki rəhbərliyə çoxsaylı şikayət ərizələri yazıb təqdim edirdim.

Bu gün isə, çox sevinirəm və məmnunam ki, sizin yüksək idarəetmə məharətinizlə, atdığınız sağlam və əməli addımlarınızla aparatı təkmilləşdirmisiz, katibliyin əməkdaşlarını hövsələli, sağlam, psixoloji dayanıqlı işçilərlə təmin etmisiz.

**Xahiş edirəm, mənim adımdan katibliyin əməkdaşları Ləman Əsgərovaya, Nərgiz Nəcəfovaya, Cavid Şahməmmədliyə təşəkkürlərimi çatdırın, onların iş fəaliyyətləri izlənərkən mənim təşəkkür müraciətimi nəzərə alın.**

Hörmətlə, Allahverdiyeva Sevil İsmayıl qızı

Bakı şəhəri, 04 sentyabr 2022-ci il

--
Sevil Allahverdiyeva
Отправлено из Почты Mail.ru